**Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının», «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının şərhinin» və «Peşəkar Mühasiblərin Etika Məcəlləsinin» ingilis dilindən azərbaycan dilinə tərcüməsi barədə 2.1.1., 2.1.2., 2.1.3-cü bəndlərinin icrasına dair**

# A R A Y I Ş

**Hormətli sədr,**

**Hörmətli Şura üzvləri və həmkarlar.**

2014-cü il 14 yanvar tarixində Beynəlxalq Mühasiblər Federasiyası ilə Azərbaycan Respublikası Auditorlar Palatası arasında imzalanmış Anlaşma Memorandumu ilə «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının», «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının şərhinin» və «Peşəkar Mühasiblərin Etika Məcəlləsinin» nəşrlərinin azərbaycan dilinə tərcüməsinə icazə verilmişdir. Həmin nəşrlərin tərcüməsi məqsədilə tərcüməçi şirkət seçilmiş və müqavilə bağlanmışdır. Bu müqavilə üzrə orijinalı 1361 səhifədən və 2 cilddən ibarət «Beynəlxalq keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Təlimat» kitabı tərcüməçi şirkət tərəfindən təsdiq edilmiş qrafik üzrə 2014-cü ilin iyul ayından başlayaraq 1413 səhifədən ibarət 2014-cü ilin 19 noyabr tarixinədək tərcümə edilərək Auditorlar Palatasına təqdim edilmişdir. Həmin materiallar redaktə edilmək üçün 2014-cü il 21 noyabr tarixində Ş.Yaqubova göndərilmişdir.

Bu günədək bu Təlimatın yalnız 1-ci hissəsinin mündəriciatı redaktə edilib tamamalanmışdır. «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının şərhi» və «Peşəkar Mühasiblərin Etika Məcəlləsi»nin hələlik tərcüməsinə başlanmamışdır. «Mühasiblərin Etika Məcəlləsi» orijinalda 162 səhifədir.

**Hörmətlə,**

**Maliyyə və təsərrüfat**
**idarəsinin rəisi** **V.Rəhimov**